**Rumıniyanın İnvestisiyalar və Xarici Ticarət Agentliyinin 2024-2025-ci tədris ili üçün təqaüd proqramı**

**Ümumi məlumat:** Rumıniyanın İnvestisiyalar və Xarici Ticarət Agentliyi (ARİCE) 2024-2025-ci tədris ili üzrə Avropa İttifaqı üzvü olmayan ölkələrin vətəndaşları üçün 40 ədəd təhsil qrantı ayırmışdır.

**Ölkə:** Rumıniya

**Təhsil səviyyəsi:** bakalavriat, magistratura, doktorantura

**Tədris dili:** rumın dili (dili bilməyən şəxslər üçün 1 illik kurs təşkil edilir)

**Maliyyələşmə:** təhsil haqqından azad olunma, aylıq təqaüd, yataqxana xərcləri, tibbi yardım, ictimai nəqliyyat xərclərində Rumıniya tələbələrinə bərabər tutulan güzəştlər

**Təqaüd proqramı barədə ətraflı məlumat üçün keçid: https://arice.gov.ro/1/burse-2024/**

**Müraciət üçün tələb olunan meyarlar və sənədlər barədə ətraflı məlumatı keçiddən əldə etməyiniz mümkündür.**

Təqaüd proqramına müraciət etmək istəyən şəxslər tələb olunan sənədləri PDF formatda, burse2024@arice.gov.ro elektron poçt ünvanına göndərməlidirlər.

Müraciət etmək üçün son tarix **31 may 2024**-cü ildir.

Təqaüd proqramı ilə bağlı əlavə suallarınızı burse2024@arice.gov.ro elektron poçt ünvanına göndərməyiniz xahiş olunur.